© N.Qubadoğlu, 2011

# QAZANÇI KƏND ADININ MƏNŞƏYİ

**N.Qubadoğlu**

*İctimai Televiziya və Radio Yayımları Şirkəti,*
*AZ1012, Bakı, Şərifzadə küç., 241*

Azərbaycan yer-yurd adlarının stratiqrafik baxımdan öyrənilməsi göstərir ki, onların bəziləri eramızdan əvvəlki dövrlərdən başlayaraq müasir zəmanəmizə qədər meydana gəlmişdir. Azərbaycan oykonimiyasında maraq doğuran mənşəyi haqda müxtəlif mülahizə söylənilən coğrafi adlardan biri də Qazançı kənd adıdır.

Qazançı kənd adının arealına Goranboy, Ağdam, Ağdərə və Naxçıvan MR-in Culfa inzibati rayonlarının ərazisində rast gəlinir. Qazançı (Qazan) yaşayış məntəqəsi adının mənşəyini bir qrup tədqiqatçılar qeyd edir ki, türk tayfasının adı ilə əlaqədar olaraq yaranmışdır. Bəziləri Milad tarixinin başlanğıcında hunların, suvarlar və xəzərlərin tərkibində mövcud olmuş Qazançı tayfasının adı ilə bağlı yaranmasını, bir qrup tədqiqatçılar «Kitabi-Dədə Qorqud» dastanlarının qəhrəmanı Qazan xanın adı ilə əlaqədar olmasını irəli sürür. Bizcə, bu oykonim Qazançı adlı türk tayfasının adını əks etdirir. Bu tayfa eramızın I-II əsrlərində Azərbaycan ərazisində məskunlaşmışdır.

Məqalənin aktuallığı Qazançı toponiminin mənşəyinin elmi faktlarla izah olunması, məqsədi coğrafi adın etimologiyasının şərh edilməsi, nəticəsi Azərbaycan xalqının etnogenezinin formalaşmasında xüsusi iştirak etməsidir.

Azərbaycanın yer-yurd adlarının stratiqrafik (yaşca tədqiqi) baxımdan öyrənilməsi göstərir ki, onların əksəriyyəti eramızdan əvvəlki dövrlərdən başlayaraq müasir dövrümüzə qədər meydana gəlmişdir. Cənubi Qafgaz, o cümlədən Azərbaycan keçmiş Sovetlər İttifaqının ən qədim mədəniyyət ocağı, yaşayış məskəni olmaqla yanaşı, həm də paleotoponimlər ölkəsi sayılır.

Azərbaycan ərazisində ibtidai icma quruluşunun təşəkkülü daş dövrünün (paleolit) ən qədim mərhələlərindən başlamış, uzun və mürəkkəb inkişaf yolu keçmiş üst paleolitə (son paleolit) keçid dövründə başa çatmışdır. Azərbaycan dünyanın ən qədim mədəniyyət ocaqlarından biridir. Əlverişli təbii coğrafi şəraitə, zəngin fauna və flora aləminə, mülayim iqlimə malik olan Azərbaycan Yer kürəsində ibtidai insanın formalaşdığı regionlar sırasına daxildir. Azərbaycanda yaşı əsrlər və min illər olan elə qədim məntəqə və yer-yurd adları vardır ki (məsələn, Naxçıvan, Muğan, Gəncə, Şamaxı və s.) onların mənşəyinin araşdırılması, mənalarının müəyyənləşdirilməsi bir sıra məsələlərlə yanaşı, şəhərsalma tariximizin yazılmasında çox mühüm əhəmiyyətə malikdir. Coğrafi adlar bizim keçmiş tariximizdir. Çünki bunlardan bir çoxu ulu əcdadlarımızın – qədim hunların, savirlərin, bulqarların, qıpçaqların, peceneqlərin, oğuzların yadigarıdır. Toponimlər bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir. Çünki onların müəyyən hissəsi bizdən sonra uzun illər, əsrlər və min illər yaşayacaq, dövrümüzün əks-sədasını gələcək nəsillərə çatdıracaqdır. Daha doğrusu, xalqımızın təkamülündə, etnogenezində çox mühüm rol oynamış etnik qruplardan, tayfalardan, o cümlədən Abdal, Kəngərli, Qarabörk, Bayat, Qıpçaq, Qazançı, Dondarlı, Qazax, Qaraqoyunlu, Gəncə, Gərgər, Padar, Xəzər, Çıraq və s. haqqında geniş məlumat verəcəkdir.

Toponimlərin uzun illər ərzində tədqiq olunması xalqımızın özünəməxsus qədim milli mədəniyyətə və əraziyə malik olduğunu, onun avtoxton (yerli, əsas sakinlər) xalq olduğunu elmi əsaslarla təsdiq edir. Bu isə həm də xalqımızın tarixini XI əsrlə bağlayanların fikirlərinin kökündən əsassız olduğunu bir daha sübut edir.

Toponimlərin yaranması ardı kəsilməyən bir tarixi prosesdir. Çünki zaman-zaman minlərlə yeni kənd, şəhər və müxtəlif obyekt adları yaradılır. Bəzi obyekt adları dəyişdirilərək yeni adlarla – ünvanla adlandırılır. Bu baxımdan, akademik Budaq Budaqov toponimik adları haqlı olaraq toxunulmaz müqəddəslər adlandırmış, onların toplanılmasını, Azərbaycan toponimik fondunun zənginləşdirilməsini və tədqiqini şərəfli bir iş saymışdır (Budaqov, 1979).

Azərbaycanın bəzi oykonimlərindən fərqli olaraq Qazançı yaşyış məntəqəsinin respublikamızın ərazisində arealı çoxdur (Zəngilan, Goranboy, Ağdam, Ağdərə və Naxçıvan MR-in Culfa inzibati rayonlarında). Belə ki, Azərbaycan topo-

nomiyasında çoxsaylı Qazançı adlı mikrotoponimlərə (yer-yurd adlarına) rast gəlinir. İlk baxışda bu kənd adının mənşəyinə dair söhbət açıldıqda yerli sakinlər belə bir rəvayət söyləyir. Kəndin ilk sakinləri qazan hazırlamaqla məşğul olduqlarına, əhalinin sənətkarlığına görə ona bu ad verilmişdir. Doğrudur, sənətkarlıqla bağlı olaraq Azərbaycan Respublikasında yaranmış kənd adlarımız mövcuddur. Məsələn, Dəmirçilər kəndi (Qazax, Qubadlı, Əskəran rayonları), Bağbanlar kəndi (Ağdam rayonu), Dəlləkli (Zəngilan, Masallı, Yardımlı, Tovuz rayonları), Comuşçular kəndi (Saatlı və Salyan inzibati rayonları), Çıraqlı kəndi (Daşkəsən və Laçın rayonları), Şatırlı kəndi (Bərdə və Cəlilabad rayonları), Satıroba kəndi (Masallı rayonu) və s. Bu coğrafi adlar ilk növbədə əhalinin sənətkarlığı ilə əlaqədar olaraq yaranmışdır. Qeyd etməliyik ki, əsrlər, min illər keçdikdən sonra toponimik qanunayğunluqlara görə, həmin yaşayış məntəqələrinin əksəriyyəti sonralar tayfa, nəsil adları kimi formalaşmışdır. Yuxarıda adları çəkilən coğrafi adlar tarixi mənbələrdə etnotoponimlər kimi qorunub saxlanılmışdır. Ağamusa Axundov yazır: «Dəmirçi istərsə də Dəmirçilər toponimləri, ehtimal ki, türkdilli dəmirçilər tayfasının adından yaranmışdır» (Axundov, 1983).

Qazançı yaşayış məntəqəsi respublikamızın ən qədim oykonimlərindən biridir. Culfa rayonundakı Qazançı kəndinin ərazisində «Tunc və ilk Dəmir dövrünün abidəsi olan Qazançı qalası orta əsrlərə aid Qazançı körpüsü ətrafındakı bir neçə kənd xarabalıqları və müxtəlif tarixi memarlıq abidələri bu kəndin qədim yaşayış məskəni olmasını sübut edir (Novruzlu və b., 1993).

Goranboy rayonunda (Gəncə-Qazax düzənliyində) yerləşən Qazançı kəndinin keçmiş adı Miskinli Qazançı olmuşdur. Yaşayış məntəqəsi XIX əsrdə Miskinli kəndindən (indiki Şəmkir rayonu ərazisindən) köçüb gəlmiş ailələr tərəfindən salınmışdır.

Qazançı coğrafi adının yayılma arealı genişdir. Belə ki, Qazançı və Qazanlı toponimlərinin arealına Bolqarıstanda, Qazaxstanda, Özbəkistanda, Türkiyədə, İranda, Türkmənistanda, Qərbi Sibirdə, Tatarıstanda, Ukraynada, Qafqazda və dünyanın bir çox türkdilli ölkələrində rast gəlinir.

Tarixi mənbələri araşdırdıqda qazançı yaşayış məntəqəsinin heç də peşə, sənətkarlıqla yaranmadığının şahidi oluruq. Qazançı coğrafi adı «qazan» qədim tayfa adı və mənsubiyyət şəkilçisi olan «çı» komponentlərindən ibarət olub. «Qazan» tayfasına mənsub deməkdir.

A.Bağırov yazır ki, «Qazan» coğrafi adının Qazan adlı bir şəxs tərəfindən bina edildiyindən buraya Qazançı adı verilmişdir (Bağırov, 2008). Türk xalqlarında qazan sözü antroponim (şəxs adı) kimi mövcuddur. Amma Qazan şəxs adına nə üçün Qazançı deyilməsi bir qədər şübhəlidir. Bəlkə də Qazançı Qazana məxsus olan mülk deməkdir.

Tarixçi toponimist Qiyasəddin Qeybullayev Qazançı adının mənşəyini bizim eranın ikinci əsrində Cənubi Qafqaz, o cümlədən Albaniyada yaşayan qədim türk dilli bolqar tayfaları ilə əlaqələndirərək qeyd edir ki, Biləsuvar rayonundakı «Bolqarçay», həmçinin Xubyarlı (İmişli və Cəbrayıl rayonları), Çaxırlı, (İmişli, Göyçay, Masallı və Cəbrayıl rayonları), Qullar (Ağdam, Balakən, Bərdə və Qusar rayonları) və Qazançı (Goranboy, Zəngilan, Ağdam və Naxçıvan MR-in Culfa rayonu) toponimləri bolqarların tayfa adlarını saxlamışdır (Qeybullayev, 1994). Müəllif digər əsərində Qafqazda çoxlu Qazançı adlı toponimlərin adlarını çəkir (Гейбуллаев, 1991). XX əsrin əvvəllərinə aid çap edilmiş D.D. Paqirevin əsərini nəzərdən keçirdikdə orada Qazan və Qazançı adlı yüzlərlə toponimə rast gəlinir (Paqirev,1913). Növcə həmin obyekt adları kənd, çay, dərə, yarğan, qala, çöl, bataqlıq, dağ, təpə, yamac, qaya və s.-dir.

Azərbaycan toponimiyasında «Sabir» etnoniminin «Suvar» şəklində qeyd edilməsi təsadüfi deyildir. Hələ 921-922-ci illərdə Volqoboyuna səyahət etmiş Əhməd ibn Fədlan yazır ki, bulqarların şəhərlərindən biri «Bulqar», digəri isə Suvar adlanır (Заходер, 1962). Mahmud Kaşğari də bu etnonimi «Subar» kimi (qıpcaq, şuvar, bulqar) qeyd edir (Məmmədov, 1999), məhz həmin ənənə toponimiyamızda öz əksini tapmışdır. Görünür, Biləsuvar oykoniminin mövcud olduğu zonada Bolqar çay hidroniminin olması da həmin qanunauyğunluqla bağlıdır (Qeybullaev, 1981).

Bulqar qəbilə və tayfalarının adları ilə meydana gəlmiş coğrafi adların əsas səciyyəvi xüsusiyyətlərindən biri odur ki, hun, Kəngər, Sabir, Suvar və digər etnonimlərə lı, li, lu, lü şəkilçisi qoşulmaqla düzəldiyi halda, qazançı etnotoponiminə «çı» şəkilçisi qoşulmuşdur. Ən iri bulqar qəbilələrindən biri də Qazançı idi. XIX əsrin sonu, XX əsrin başlanğıcında Azərbaycan məmləkətində 10-a qədər Qazançı yaşyış mən-

təqəsi mövcud olmuşdur (Пагирев, 1913).

Nadir Məmmədov yuxarıda irəli sürülən fikirlərə qarşı çıxaraq Qazan toponimini zahiri görünüşünə görə qazana oxşadılmasını metoforik toponim kimi izah edir. Müəllif çox haqlı olaraq yazır ki, respublikamızın ərazisində bir qrup toponimik obyektlər vardır ki, onlara formasına, relyefin zahiri görünüşünə, heyvana, quşa, insan və heyvanların bədən üzvlərinə və ya digər əşyaya oxşadılmasına görə ad verilmişdir (Məmmədov, 1999).

Tarixi mənbələrdə qədim bulqarların tərkibində bir neçə türk tayfaları – qul, cakar, kuvyar və başqa tayfalarla yanaşı, qazan tayfasının da olması qeyd olunur (Юсипов, 1971). V əsr tarixi mənbələrə görə, bulqarların eramızdan əvvəl ikinci əsrdə Zaqafqaziya, Şimali Qafqazdan Ermənistana gəlməsi və çoxlu toponimlərin onlarla bağlı olaraq meydana gəlməsi məlumdur («История…», 1893).

Qazançı yaşayış məntəqəsi yaxınlığındakı tarixi-memarlıq abidələri bu kəndin qədim yaşayış məskəni olmasını təsdiq edir. İ.İ.Şopenin yazdığına görə, «Nadir şahın dövrünə qədər Qazançı yaşayış məntəqəsində 1000-dən artıq ailə yaşayıbdır» (Шопен, 1862). O göstərir ki, Qazançı oykonimi həm də ticarət mərkəzi kimi də tanınmışdır (Шопен, 1866).

Eramızın başlanğıcının ilk əsrlərində hunların, sonralar suvarların və avarların, daha sonralar isə xəzərlərin tərkibində olmuş bulqar tayfalarının izlərinə Azərbaycan toponimiyasında da geniş təsadüf olunmaqdadır (Гейбуллаев, 1981). Azərbaycan Respublikasının Yardımlı, Cəlilabad və Biləsuvar rayonları ərazisindən İran İslam Respublikasının Mahmudçala gölünə tökülən Bolqarçay, Ağdam, Balakən, Bərdə və Qusar rayonlarındakı Xubyarlı, İmişli, Göyçay, Masallı rayonlarındakı Çaxırlı və s. bulqar və bolqar tayfa adlarının toponimiyamızda qorunub saxlanılan toponimik şahidləri kimi izah edilir. Bu cəhətdən qazan komponenti etnotoponimlərin və onların yayılma areallarının araşdırılması da vacib məsələlərdən biri kimi diqqəti cəlb edir.

Qazançı coğrafi adının mənşəyi ilə bağlı belə bir mülahizə də söylənilir ki, Qazançı «Kitabi-Dədə Qorqud» dastanının qəhrəmanı Salur Qazanın adını daşıyır. Coğrafiya elmləri doktoru, professor Səfəralı Babayev Naxçıvan ərazisindən topladığı zəngin toponimik materiallara əsasən belə bir mülahizəni söyləmişdir. Doğrudan da, müəllifin belə bir gənaəta gəlməsinə haqqı vardır. Çünki Naxçıvanın ərazisi Qazan və Qazançı adlı toponimlərlə olduqca zəngindir. Belə coğrafi adlara Naxçıvan Muxtar Respubilkasının inzibati rayonlarında, məsələn, Ordubad rayonundakı Qazangöldağ, Qazan göl aşırımı, Qazan yurdu, Qazanköç yaylağı, Qazangöl, Qazandağ, Culfa inzibati rayonundakı Qazançı kəndi, Qazan yamacı, Qazançı qalası (eramızdan əvvəl II-I minillikdə), Qazançı çökəkliyi, Qazan yurdu, Qazançı dərəsi, Qazançı gölü, Qazançı yamacı, Qazançı mineral bulağı, Qazançı örüşü, Qazançı çökəkliyi; Babək rayonundakı Qazan yaylağı, Qazan xarabalığı, Qazanbulaq, Qazan yoxuşu, Qazan çuxuru, Qazan çayı, Şərur inzibati rayonunda Qazançılar kəndi, Qazançılar təpəsi, Qazançılı obası, Qazan yoxuşu, Qazan dikdiri toponimlərinin və s. mikrotoponimlərin olması və «Kitabi Dədə Qorqud» dastanlarının baş qəhrəmanı Qazan xanın adı ilə yaranması zənn olunur.

S.Babayev Şərur düzü ilə Sədərək düzü arasında yerləşən Qazançoban düzünün, Qazançılar, Qazançılı kəndlərinin Qaraça Çobanın və Qazan xanın adı ilə əlaqədar olduğunu da ehtimal edir (Babayev, 1999).

Naxçıvan zonasının toponimiyasının tədqiqatçılarından biri olan A.N.Bayramov Naxçıvandakı qazan mənşəli coğrafi adları Oğuz igidi Qazanın adı ilə bağlayır və Qazançı yaşayış məntəqəsi adının Qazanın tərəfdarı mənasında izah edir (Bayramov, 1999). Onun fikri ilə razılaşan professor Q.Voroşil bu haqda yazır: «Adı V əsrdə çəkilən Gözəl Qazan» sonralar «Kitabi Dədə Qorqud» dastanlarının baş qəhrəmanı kimi təsvir olunur (Voroşil, 1983).

Qeyd olunan bu fikirləri yekunlaşdıraraq belə qərara gəlirik ki, Qazançı yaşayış məntəqəsinin adı haqqında çoxlu rəvayət, mülahizə və elmi fikirlər söylənilmişdir. Bizcə, Qazançı (Qazan) yaşayış məntəqəsinin adı bulqar-türk tayfasına məxsus Qazan, Qazançı elinin adı ilə bağlıdır. Milad tarixinin başlanğıcında hunların, suvarların, xəzərlərin tərkibində mövcud olmuş həmin Qazançı tayfasının adını əks etdirən toponimlərə indi də rast gəlirik. Qazançı tayfasının Azərbaycan ərazisinə gəlməsi və burada məskunlaşması təqribən eramızın I-II əsrlərinə təsadüf edir. Qazançı (Qazan) adlı coğrafi adların kütləvi surətdə türk dilli xalqların yayıldığı ərazilərdə geniş məskunlaşması da bizim fikrimizi təsdiq edir.

**ƏDƏBİYYAT**


AXUNDOV, A. 1983. Torpağın köksündə tarixin izləri. Gənclik. Bakı.

BABAYEV, S.Y. 1999. Naxçıvanda «Kitabi-Dədə Qorqud» toponimləri. Yeni nəşrlər evi. Bakı.

BAĞIROV, A. 2008. Naxçıvanın oykonimləri. Nurlan. Bakı.

BAYRAMOV, A.N. 1999. Naxçıvanda «Dədə Qorqud» kitabı ilə səsləşən yer-yurd adlarımız. *Filologiya məsələlərinə dair toplu,* 3, Bakı.

BUDAQOV, B. 1979. Toxunulmaz müqəddəslər. *Elm və həyat jurnalı,* 12, Bakı.

İZAHLI COĞRAFİYA ADLAR LÜĞƏTİ. 1964. Bakı.

QEYBULLAYEV, Q.Ə. 1994. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Azərnəşr. Bakı.

MƏMMƏDOV, N.G. 1999. Azərbaycan Respublikasının oronimləri. Bakı Universiteti Nəşriyyatı. Bakı.

MƏMMƏDOV, N.G. 2007. Toponimika (dərslik). Bakı Universiteti Nəşriyyatı. Bakı.

NOVRUZLU, Ə.İ., BAXŞƏLİYEV, V.B. 1993. Culfa bölgəsinin arxeoloji abidələri. Elm nəşriyyatı. Bakı.

VOROŞİL, Q.D. 1983. Azərbaycan dilinin təşəkkülü tarixinə dair. *Azərbaycan filologiyası məsələləri.* I. Elm nəşriyyatı. Bakı.

ГЕЙБУЛЛАЕВ, Г.А. 1991. К этногенезу азербайджанцев. Т.I. Элм. Баку.

ГЕЙБУЛЛАЕВ, Г.А. 1981. О происхождении некоторых этнотопонимов Азербайджана. *Азербайджанский этнографический сборник,* Баку.

ЗАХОДЕР, В.Н. 1962. Каспийский свод сведений о Восточной Европе. Торган и Повальжев IX-X вв. Москва.

ИСТОРИЯ АРМЕНИИ МОИСЕЯ ХОРЕНСКОГО. 1893. Москва.

ПАГИРЕВ, Д.Д. 1913. Алфавитный указатель к пятиверстной карте Кавказского края. Тифлис.

ШОПЕН, И.Н. 1862. Исторический памятник состояния Армянской области в эпохе ее присоединения к Российской империи. Типография Императорской Академии наук. Санкт-Петербург.

ШОПЕН, И.Н. 1866. Новые заметки по древней истории Кавказа и его обитателей. Санкт-Петербург.

ЮСИПОВ, Г.В. 1971. Болгаро-татарская эпиграфика и топонимы как источник исследования этногенеза казахских татар. *Вопросы этногенеза тюркоязычных народов Среднего Поволжья,* I, Казань.


***Məqaləyə c.e.d., prof. N.Məmmədov rəy vermişdir***